# *Stanislav KOVAL*: "Azərbaycanda qayğıkeş, mehriban və qonaqpərvər insanlar yaşayırlar"

Belə marafonlarda əvvəllər də iştirak etmişəm. Etiraf edim ki, təşkilatçılıq ən yüksək səviyyədədir.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Küləyə qalib gəl!" şüarı altında keçirilən Bakı marafonunun iştirakçısı, ukraynalı Stanislav Koval bu sözlərlə marafonla bağlı təəssüratlarını AZƏRTAC-ın müxbiri ilə bölüşüb.



O deyib: "Azərbaycan həmişə xoşuma gəlib. Burada qayğıkeş, mehriban və qonaqpərvər insanlar yaşayırlar. Belə bir tədbir üçün bu qədər insanı bir yerə toplamaq böyük və zəhmətli işdir. Gənclər çox olsa da, hamı fəal həyat tərzi keçirmir. Buna görə də belə tədbirlər hamımız üçün faydalıdır".